*Milli özünüdərk və istiqlal ədəbiyyatı*

# Umgülsüm Sadıqzadə və Əmin Abid Gültəkin yaradıcılığında milli-istiqlal izləri

**Ülviyyə Əhmədova**
Xəzər Universiteti. Azərbaycan.
E-mail: ulviyyahmadova@gmail.com

**Annotasiya.** XX əsrin əvvəllərində istiqlal poeziyası dedikdə, azadlıq mübarizəsindən danışdıqda Əli bəy Hüseynzadə, Ümgülsüm, A.Səhhət, A.Şaiq, M.Hadi, Ə.Cavad, Ə.Müznib, Əli Yusif, C.Cabbarlı, Ə.Cənnəti, Ə.Abid, legionçular və s. yaradıcılığını xüsusi vurğulasaq da, ümumən bu dövrün xarakterik keyfiyyəti və ana xəttini yadellilərə qarşı sözlü mübarizə təşkil edirdi. Bu dövrün poeziyası fikir, ideya yönümlü inkişaf edirdi. Poeziya nümunələri, əsasən, bədiilikdən, sənətkarlıq xüsusiyyətlərindən daha çox ideyanın, mübarizliyin üstünlüyü ilə ön plana keçirdi. Böyük idealların təbliğinə həsr olunan əsərlər quruluş baxımından xüsusi seçilməsə də, məzmun kamilliyi baxımından olduqca fərqlənirdi. Burada milli azadlıq sevincinin tərənnümü olduqca güclü, işğala nifrət daha hərarətli hal alırdı. Bunu adını çəkdiyimiz müəlliflərin yaradıcılığında da görmək mümkündür. Beləliklə, poetik nümunələr bir az da milli ruha yaxınlaşır, yeni nəfəs, yeni ideya gəlirdi. Məqalədə XX əsrin istiqlal mübarizəsində özünəməxsus yeri olan Umgülsüm Sadıqzadə və Əmin Abid Gültəkinin müqayisəli şəkildə şeir nümunələrinə yer verilmiş, yeri gəldikcə oxşar paralellər təşkil edən digər istiqlal şairlərinin də şeirlərinə müraciət edilmiş, istiqlal mübarizəsi təhlil edilmişdir.

**Açar sözlər:** Umgülsüm, Əmin Abid, istiqlal, poeziyada mübarizə

**Məqalə tarixçəsi:** göndərilib – 16.09.2022; qəbul edilib – 27.09.2022

# Traces of national independence in the works of Umgulsum Sadigzade and Amin Abid Gultakin

**Ulviya Ahmadova**
Khazar University. Azerbaijan.
E-mail: ulviyyahmadova@gmail.com

**Abstract.** At the beginning of the XX century, when we talk about independence movement poetry, works of Ali Bay Huseynzada, Umgulsum, A.Sahhat, A.Shaiq, M.Hadi, A.Javad, A.Muznib, A.Yusif, J.Jabbarli, A.Jannati, A.Abid, legionnaires, and others have specific importance although in general, the characteristic quality and main line of this period was fighting verbally against foreigners. The poetry of this period developed in an idea-oriented way. Examples of poetry, mainly, came to the fore with the superiority of ideas and movement rather than artistic features.

Although the works dedicated to the promotion of great ideals were not particularly distinguished in terms of structure, they differed greatly in terms of absolute content perfection. The chanting joy of national freedom was very strong here, and the hate against the occupation became even more heated. This can also be seen in the works of the authors we mentioned. Thus, the poetic examples were coming a little closer to the national spirit, they were breathing life into the spirit.

In the article, the poems of Umgulsum Sadigzade and Amin Abid Gultakin, who have a unique place in the independence movement of the XX century, are compared, and the poems of other liberty poets who have similar parallels are referred to, where appropriate, and the independence movement is analyzed.
**Keywords:** Umgulsum, Amin Abid, independence, struggle in poetry

**Article history:** received – 16.09.2022; accepted − 27.09.2022

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Azərbaycanda xalqın nicatını Rusiya boyunduruğundan azad olmaq və müstəqil milli dövlət yaratmaq idealları uğrunda mübarizə aparan "milli istiqlal" şeiri də mövcud idi. "Bu şeirin nümayəndələri Azərbaycan həyatının keçici sosial hadisələrinə çox az müraciət edirdilər. Onları fəqət siyasi azadlıq idealı düşündürürdü. Millətin müstəmləkə zülmündən azad olmaq arzusu milli istiqlal şeirinin başlıca idealı idi" [2, s.10].

## Əsas hissə / *Main Part*

*Mən saralıb sollam, qərib ellərdə,*
*Sözüm dastan olar bütün dillərdə,*
*Gözüm qaldı, çiçəklərdə, güllərdə,*
*Gül dərmədim, düşdüm çəmən ayrısı,*
*Sürgünəm, düşgünəm, Vətən ayrısı.* [9, s.77]

– deyən, milli istiqlal şeirinin əsas nümayəndələrindən olan, Azərbaycanın repressiya olunmuş ilk və yeganə şairəsi, 44 illik ömrünə həm şəxsi həyatının uğurusuzluqlarını, həm də Vətən iztirablarını sığdırmış Umgülsüm Sadıqzadə 1900-cü ildə Bakının Novxanı kəndində, dövrünün savadlı mollası Əbdüləzizin ailəsində dünyaya göz açmışdır. Hələ 9 yaşından şeir yazmağa başlamış, 1914-cü ildən "İqbal", "Yeni iqbal", "Açıq söz" "Azərbaycan" və s. mətbuat orqanlarında hekayə və şeirlərini çap etdirmişdir. Onun dövrümüzə 200-dən artıq şeiri, "Vətən sevgisi", "Solğun çiçək" və s. hekayələri, 1 poeması gəlib çatmışdır. Umgülsümün ədəbi irsi şeir, hekayə, gündəlik və məktublardan ibarət olsa da, ədəbiyyatımızda, əsasən, istiqlal şairəsi kimi tanınmışdır. 1916-1920-ci illəri yaradıcılığının məhsuldar dövrü hesab edən Aydın Hüseynzadə müəllifin ədəbi irsini üç mərhələyə ayırır: 1. 1914-1920; 2.1920-1937; 3. 1837-1941 [8, s.149]

İlk dövr yaradıcılığına daxil olan "Vətən sevgisi" hekayəsi "Dirilik" jurnalının 1 dekabr 1914-cu il nömrəsində dərc edilmişdir. Yaradıcılığının hər mərhələsində Vətəninin daşını, torpağını həssaslıqla müşahidə edən Umgülsüm yazırdı: "Ey daşlar, kim bilir sizi kimlər doğmuş, dərağüş etmiş, böyütmüş, sonradan sərdabəyə göndərmişsiniz. Babalarımızın min dürlü səfaları ilə fərqlənmişsiniz, min dürlü əzab, əziyyətin şahidi olmuşsunuz. Fəqət nə vaxt şənlənəcək, şadlanacaqsınız?" [3, s.89]. O bu misraları ilə kimsəsiz bir qızın vətənə olan həssas sevgisini çatdırmış, üzərində dayandığı torpağın qədimliyini, nəsillərin davamlılığını hələ kiçik yaşlarından dərk etmişdir. Umgülsüm "Solğun çiçək" adlı hekayəsi öz həyatından təsirlənərək qələmə almışdır. Hekayədə deyilir: "Öksüz qızcığaz bütün günlərini, saatlarını, bəlkə dəqiqələrini böylə anasının xəyalı ilə məşğul.

- Ah!... anacığım! Gedib də məni kimlərin ümidinə buraxdın. Atamınmı? O da on bir aydan bəri qara torpaların ağuşunda yatıyor. Barı məni də özünlə bərabər aparaydın. Tamam, qızlar geyinər, oynar və gülərlər. Anaları onları alqışlar. Bir az pozğun durarlarsa anaları oxşar və öpər. Lakin mənim üçün heç birisi yox!..

Yoldaşlarım "ana!" – deyə səslənirlər, mənim ana deyəcəyim bir kimsə yox." Misralardan da göründüyü kimi, romantik üslubda yazılan hekayələr onun kövrək, həssas təbiətindən xəbər

verir. Rasim Tağıyev onun hekayə yaradıcılığına əsaslanaraq qeyd edir: “Umgülsüm yaradıcılığında tənqidi-realizm axtarmaq cəhdi ilə razılaşmaq doğru olmazdı. Onun ədəbi irsi romantizm tələblərinə tamamilə uyğundur” [11, s.11]. Şairənin 1914-1920-ci illərdəki yaradıcılığında lirik duyğulara, ayrılıq və övlad nisgilinə həsr edilən şeirləri də az deyil. “Umgülsüm yaradıcılığını tamamilə istiqlal poeziyasının nümunəsi kimi qəbul etmək olmaz. Onun qələmə aldığı “Validəm üçün”, “Mənim andım”, “Sevgilim yolunda”, “Hicran gecəsi” , “Aman, getmə”, “Qəriblik” və s. kimi şeirlərində sadiq qadın, vətənini sevən vətəndaş obrazını görə bilirik. Umgülsüm yaradıcılığının birinci dövründən danışarkən onun siyasətdən, vətəni barədə nigarançılığından uzaq olan bir neçə şeirini də nəzərdən qaçırmamalıyıq” [8, s.187].

Qeyd etmək lazımdır ki, müəllifin hekayə və lirikasından doğan kədər ictimai olduğu qədər də şəxsidir. Onun həyatını araşdıran tədqiqatçılar şeiriyyatındakı kədəri anasız böyüməsi ilə də əlaqələndirirdilər: “Bu kədərli duyğuları qələmə aldığı zaman necə qüssə içində olduğunu anlayıram. Çünki Umgülsüm özü də çox kiçik yaşlarında anasız qalmışdı və bu yazıdakı qızcığaz bəlkə də elə onun özüydü. Ən kədərlisi isə odu ki, anasız böyüyən Umgülsümün öz övladları da həmin taleyi yaşadı” [3, s.6].

“Doğma Vətənimə aşiq, məftun idim”, – deyən şairənin poeziyası milli ruhun yüksəkliyi, mübarizəyə çağırış hayqırışlarının güclü təzahürü, qəhrəmanlıq, vətənpərvərlik hislərinin tərənnümünə həsr edilmişdir. Bu qədər həssaslıqla yanaşı, düşmənə nifrət duyğusunun kəsəri, əsir vətəninin dövrü vəziyyəti onun kəskin qələmindən kənarda qalmamışdır. Şairənin 1916-1920-ci illərdəki yaradıcılığında “milli qürur, xalqın əsrlər boyu öz azadlığı yolunda çəkdiyi əzab-əziyyətlər, türklüyə sonsuz məhəbbət hissi çox güclüdür” [10, s. 161].

İctimai dərinliyi ilə seçilən şeiriyyatına nəzər saldıqda, onun “Dərdli nəğmə” kimi tanınan “Turan düdüyü” əsərində sevgilisinə müraciəti iki cür təhlil etmək mümkündür. Həm dərdə, həm də səfərbərliyə çağırışı özündə ehtiva edən şeirdə nikbinlik itmir, həyat yoldaşı Seyid Hüseynin məhv edilməsi, misralar boyu vətəninin məhvi ilə bütünləşir. Belə ki şeirə nəzər saldıqda görürük ki, onun “sevgilisi” əsir, didərgin, sonsuzluqda pərişandır:

*Unudulmaz dərdim, ovunmaz qəlbim,*
*Gülsə cahan, gülməz mənim taleyim,*
*Gəl yaramı, sən özün sar, sevgilim,*
*Duyulmaz dərdimə dərman nərədə?* [8, s.55]

Bu şeir haqqında fikirlər və müddəalar olduqca çoxdur. Təyyar Salamoğluya görə: “Umgülsüm Bakı kommunası dövründə Azərbaycanın mahiyyətcə müstəmləkə rejimi altında inləməsini, hədsiz fəlakətlərə düçar olmasını, Azərbaycan xalqının həqiqi mənada genosidə məruz qoyulmasını, sinfi mübarizənin əsl mahiyyətini üzə çıxarır, “məskənimiz həp fəlakət bucağı”, “bəstirimiz fırtınalar qucağı”, – deyərək fəryad qoparır” [8, s.89]. Fikrimcə, “Turan düdüyü” şeirinin Bakı kommunası ilə əlaqəsi yoxdur. Qəzetdə şeirin “Nargin əsirlərinin dilindən” qeydi ilə çapa verilməsi də bunu sübut edir. Bu fikri əksər tədqiqatçıların qeydində də görmək mümkündür.

Onsuz da sürgündə, övladlarından kənarda keçirdiyi həyatı, Seyid Hüseynin aqibətinin fəlakətli və naməlum bitməsi onun yaradıcılığına dolğun şəkildə təsir edir. Şeir boyu şairənin çəkdiyi iztirablar şəxsi bədbinliyi ilə bütünləşir. Özünü “yuvası dağıdılmış bülbülə”, “xəzan vurmuş gülə”, “nəğməsi susdurulmuş elə”, “sahili olmadan tufanda sovrulan gəmiyə” bənzədir. İşğaldan sonra bütün ümidləri puç olmuş Turan, Anadolu elinin yoxluğu, ocağı sönən türkün aqibəti sürgündə olduğu dönəmdə dərin kədər və nisgillə misralara çevrilir.

Ümumiyyətlə, türk istiqlalı və mücadiləsində ilk öncüllük vətən olan istiqlal şairlərində sevgili Vətənlə bütünləşir. Eyni paraleli, demək olar ki, adlarını çəkdiyimiz bütün müstəqillik, azadlıq şairlərinə də aid etmək mümkündür. Gültəkinin “Anneme”, “Vətənim və eşqim”, “Ayrılarkən”, “Nişansız nişanlıya”, “Qürbət məktubu”, Ə.Cavad “İraq”, “Haralısan”, “Axşamlar”, “Unudulmuş sevda”, C.Cabbarlının “Sevdiyim”, Dün o gözlərdə” və s. şeirlərdə sevgi anlayışının Vətənlə birləşdiyini görə bilərik. Əmin Abid:

*Anne, sen daha çok yakınsın ona,*
*Get bildir ki, hala esiridir can,*
*Bilmiyorsan, eger sor da qonşuna*
*Sevgilimin ismi: Şən Azərbaycan!* [1, s. 78]

**Ə.Cavad:**

*Hər kəs der ki, mənim könlüm nolduğun,*
*Bilən yoxmu "Kimə" vurğun olduğum?* [4, s.78]

**C.Cabbarlı:**

*Canalıcı bir görkəmlə dağ başında durunca,*
*Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.*
*Nazlı əlin umuzunda saçlarına vurduqca,*
*Bir-bir oxşayırsan bütün Turan ellərin.*
*Altaylardan, Altun dağdan doğma sellər bəkliyor*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.*

Misraların hər birində müəlliflərin ana-vətən paralellərinin necə dolğun şəkildə təsvir edildiyini də görmək mümkündür.

Umgülsümün yaşadığı ictimai şəraitdə ölkədə mürəkkəb ictimai-siyasi hadisələr tüğyan edirdi. Erməni daşnaklarının törətdikləri mart soyqırımı, inqilablar onun Seyid Hüseynlə toylarının təxirə düşməsinə səbəb oldu. O illərdə baş verən ən xoş hadisə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması idi. Yeni hökumət ağır sınaqlarla üzləşirdi. Həmin günlərdə fəaliyyətə başlayan "Azərbaycan" qəzeti dövrün görkəmli ziyalıları üçün mübarizə meydanına çevrilmişdi. Umgülsüm 1919-cu ildə "Azərbaycan" qəzetinin 352-ci sayında yazırdı:

*Annəciyim, ağlama, xeyir-dua söylə sən,*
*Göz yaşınla saxlama, haqq yoluna gedəni.*
*Onun çarpan qəlbinə çalış fərəh verəsən,*
*Onun şux gənc həyatı qurtaracaq vətəni!*

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında onun haqqında yazılır: "Umgülsüm Sadıqzadə 1918-ci ildə AXC-nin yaranmasını sevinclə qarşılamış, milli dövlətimizi vəsf etmiş, bu böyük hadisəyə "Türk Ordusuna", "Ey Türk oğlu", "Çəkil, dəf ol", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" adlı şeirlər həsr etmişdir [12, s.430]. O, "Ey ,Türk oğlu" şeirində:

*İştə Turan, iştə yurd, iştə Türklük ocağı,*
*Yabancıya düşəməz duruyorkən sən özün,*
*Tarixlərdə həp sənin rəşadətin, hünərin,*
*Bildirişin, firtınan oxunurkən sən neyçün?*
*Avropaya qarşı bir*
*Yersiz, yurdsuz əsirtək boyun büküb durasan? [1, s.58]*

– deyə, gənclərə öz keçmişini xatırlatmağa çalışır. Şairənin bu misraları biz Əmin Abidin "Azərbaycan gəncliyinə" şeirini xatırladır:

*Düşün ancaq, mənim kafamla sən də,*
*Ey azəri gəncliyi!*
*Madam ki, bir cövhər yaşayır səndə,*
*Neçün onun qüruruna alət olasan?*

"Səni vəhşi tanıyan o mədəni canavar",-deyə təsvir etdiyi işğalı azadlığa qovuşsa da, 27 aprel istilasından sonra Gültəkinin dili ilə desək "dağdan kəskin dişi ilə enib azadlığı gəmirən vəhşiyə" çevrilib, bütün xoş niyyətləri udur.

17 il sonra Ümgülsüm xanımın həyat yoldaşı Seyid Hüseyni Nargin adasında "xalq düşməni" damğası ilə güllələyib, onun özünü isə "xalq düşməni"nin ailəsi kimi sürgünə göndərirlər. Deyə bilərik ki, onun sürgün illərində bir vətəndaş, qadın olaraq çəkdiyi əziyyətlər, gördüyü məhrumiyyətlər milli qürurunu qıra bilmir.

"Çəkil, dəf ol!" şeirində başının üstündə güc aldığı hilalın qüvvətindən özünə qüvvət doğurur. Kimliyinə "Turan balası", – deyə təsvir verən Umgülsüm şərəfli diləyin arxası ilə öz mübarizəsinin nə olur-olsun dəyişməyəcəyini,düşməni boğmağa nəfəsinin belə bəs edəcəyinə qeyd edir:

*Ey buzlu şimaldam qopan ruzigar,*
*Toxunma qəlbimə atəşi parlar,*
*Saqın, gəlmə, səni nəfəsim boğar,*
*Dəf ol, vətənimdə görəməm səni.*

"Buzlu şimal", "əbus sima", " mundar çöhrə" və s. kimi simvollardan istifadə edilən şeirdə, bu üsul təsadüfü seçilməyib. Ümumiyyətlə, bu məcazları istiqlal şairlərinin, demək olar ki, hər birində görmək mümkündür. "Romantik şeirin xarakterinə uyğun olan simvolik obrazlar bir tərəfdən romantizmin tələblərinə əyani nümayişi idisə, digər tərəfdən də, şübhəsiz, romantiklərin, "müdafiə dəbilqələri" kimi çıxış edirdilər" [6,s.152].

"Əsgər anası" şeiri bütünlüklə türklük ruhu, vətən məhəbbəti, qəhrəmanlıq əzmi ilə bəzənmiş, həssas qadın duyğuları ilə qələmə alınmış şeirdir. Umgülsüm "Yurdumuzun qəhrəmanlarına" şeirində " ey gənc yurdun gənc duyğular daşıyan, gənc övladı", – deyə üzünü yurdunun gəncliyinə tutaraq, onlara olan inamını, etibarını, ümidini belə ifadə edir:

*Mənim ruhum sizin ilə biliniz,*
*Nə hisslər, nə mənalar duyuyor,*
*Nə sevgilər, nə səfalar buluyor,*
*Qəlbi bu gün məmnun edən sizsiniz.*

Şeir nümunələrindən də göründüyü kimi, sevgisini vətəninin azadlığı uğrunda fəda edən istiqlal carçılarının həyatı da dövrün siyasi hadisələri ilə eyniləşir. Taleləri müstəqil Azərbaycan dövlətinin süqutu ilə pərakəndə hal alır. Bir qadın dilindən bu qədər hərarətlə Vətən sevgisinin ifadə edilməsi, qorxmazlığı onun milli cümhuriyyətin devrilməsi ilə əlaqədar yazdığı "Hicran" və "Bayrağım enərkən" şeirləri Azərbaycan ədəbiyyatında bolşevik işğalı barədə yazılmış ilk ən dəyərli əsərlərdəndir. "Hicran" şeiri haqqında A.Hüseynzadə yazır: "1918-ci ilin mart davasından sonra ailəsi ilə birlikdə İrana getməyə məcbur olan nişanlısının ayrılığından xiffət çəkən Umgülsüm Novxanı bağlarında olarkən "Hicran" şeirini yazır" [8,s.18] – desə də, düşünürəm ki, ürəyi vətən sevgisi ilə alışan, həssas qəlbli şairə bu məzmunda şeirini yalnız şəxsi kədərinə həsr edə bilməzdi. Buna görə də özünü "solğun çiçək", "əlvan geyə bilməyən məzlum", "vərəmli qəlbindən qanlar axan" zavallı gözündə görən Umgülsüm tək sevgisi üçün deyil, vətəninin xoş günü üçün də ümidini itirmir. İçində qaldığı suallar arasında yenə də günəşinin gec-tez doğacağına inanaraq yazır:

*Günəşim bir daha doğmayacaqmı?*
*Vəhşi qaranlığı boğmayacaqmı?*
*Kölgələri şəfəq qovmayacaqmı?*
*Sordum, ümidini qırma, dedilər.* [7, s.134]

“Umgülsüm istiqlalımızla, bayrağımızla qürur duyan və bu dəyərləri sözə çevirən xanımdır. Hər kişinin cəsarət edib deyə bilmədiklərini bu zərif olduğu qədər də üsyankar qadın bütün sərtliyi ilə ifadə edib. Bu mənada o, qardaşı Məmmədəli, əmisi oğlu Məhəmməd Əminlə birgə istiqlal mübarizəsinin önündə gedənlərdən biri sayıla bilər. Zamansa o zaman idi ki, istiqlal sevdasilə yaşayanlar üçün ölümdən, sürgündən, qürbətdən başqa yol görünmürdü. Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz!" nidası ilə ucaltdığı bayrağın könüllərə endiyi məqam bir tarixi sənədlərdə, bir də Umgülsümün şeirində öz həzin kədəri, orman yanğınları kimi qarşısıalınmaz nifrətiylə yaşamaqdadı” [3, s.6].

*“Bayrağım enərkən” şeirində şairə deyirdi:*
*Al-yaşıllı bağında çiçəklərin solarkən,*
*Sən enərkən ruhumda bir inilti yüksəldi,*
*Hıçqırıqlar içində düşüyorkən, ölürkən,*
*Məni tutub qaldıran kirli, mundar bir əldi.* [1, s.68]

Öz müasirlərinin dili ilə desək onun da ifadə etdiyi kimi “buzlu şimaldan qopan ruzigarın” gec və ya tez onun da yurdunu qanlı şaxtasının içində udacağını bilir. Hər iki şeirində bütün məhrumiyyətlərə rəğmən düşmənin qana nəfəsini udacağına, vətənin üstündə dolaşan “qara buludlar”ın onun al şəfəqləri altında yox olacağına inamı tükənmir. Bu inamla da “...həsrətində olduğu şəfəq olaraq xalq hakimiyyətini tərənnüm etmişdir” [11,s.10]. Umgülsüm bu şeirlərində ona verilən bütün ümidsiz suallara ümidini qırma, inan, – deyə cavab verir:

*Günəşim bir daha doğmayacaqmı?*
*Vəhşi qaranlığı boğmayacaqmı?*
*Kölgələri şəfəq qovmayacaqmı?*
*Sordum, ümidini qırma dedilər.* [9, s.25]

## Nəticə / *Conclusion*

Buradan da aydın olur ki, Umgülsüm “günəşinin” doğacağına, “vəhşi qaranlıq”ların boğulacağına inanır, bu inamla da həsrətində olduğu gələcəyi tərənnüm edir. “Ümidini” qırmayan şairənin səsinə digər istiqlal şairlərimiz də inamla cavab verirlər.

## Ədəbiyyat / *References*


1. Abid Ə. Buzlu cəhənnəm (Ön söz və çapa hazırlayan Əli Şamil). Bakı: Günəş, 1999.
2. Ağayev İ. XX əsrin əvvəllərində Azərbaycan şeiri. Bakı: Elm, 2002.
3. Bağırzadə N. İstiqlal Umgülsüm. “525-ci qəzet”, 03.06.18.
4. Cavad Ə., Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb, 2005.
5. “Dirilik jurnalı”// 1 dekabr 1914, №6.
6. Əliyev K., Azərbaycan romantizminin poetikası. Bakı: Elm, 2002.
7. “Füqəra füyuzatı”(1920) // 8 sentyabr 1928, №2.
8. Hüseynzadə A. İstiqlal şairi Umgülsüm. Bakı: Elm, 2005.
9. Ümgülsüm. Seçilmiş əsərlər (Ön söz və tərtib edən Alxan Bayramoğlu). Bakı: Letterpress, 2010.
10. Salamoğlu T. Faciəli talelər (Azərbaycan repressiya və mühacirət şeirinə dair portret oçerklər. Bakı: Elm, 1998.
11. Tağıyev R. Döyünən ürək. “Azərbaycan jurnalı”, 1972, №2.
12. Yaqublu N. Məhəmməd Əmin Ensiklopediyası. Bakı, 2013.

# Следы национальной независимости в творчестве Умгульсум Садигзаде и Амин Абид Гюльтек

**Ульвия Ахмадова**
Университет Хазар. Азербайджан.
E-mail: ulviyyahmadova@gmail.com

**Резюме.** В начале 20-го века, когда мы говорим о поэзии независимости, когда мы говорим о борьбе за свободу, Али Бей Гусейнзаде, Умгульсум, А.Саххат, А.Шаик, М.Хади, А.Джавад, А.Музниб, Али Юсиф, Дж.Джаббарлы, А.Джаннати, А.Абид, легионеры и др. хотя мы подчеркиваем его творчество, в целом характерным качеством и основной линией этого периода была словесная борьба с инородцами. Поэзия этого периода развивалась идейно. Образцы поэзии, в основном, выдвигались на первый план с превосходством идей и борьбы, а не художественно-художественных особенностей. Хотя произведения, посвященные пропаганде великих идеалов, не отличались особым строением, но по совершенству содержания они сильно различались. Здесь воспевание радости национальной свободы было очень сильным, а ненависть к оккупации еще более пылкой. Это можно увидеть в работах упомянутых нами авторов. Таким образом, поэтические образцы немного приблизились к национальному духу, пришло новое дыхание, новая идея. В статье сравниваются стихи Умгюльсум Садыгзаде и Амина Абида Гюльтаки, которые занимают уникальное место в борьбе за независимость 20-го века, и при необходимости упоминаются стихи других поэтов за независимость, у которых есть аналогичные параллели, и анализируется борьба за независимость.
**Ключевые слова:** Умгульсум, Амин Абид, независимость, борьба в поэзии